# Tariximizin ən önəmli və dəyərli dövrü

**İlham Əliyevin prezident seçilməsinin 21 illiyi, əslində, bütöv bir tarixi əhatə edir və bu, Azərbaycan qarşısında çox mürəkkəb problemlərin həll olunduğu bir tarixdir. Azərbaycan heç vaxt bugünkü qədər özünə aid olan ən həyati məsələləri həll etmiş durumda olmayıb. Müstəqillik qazanılıb, Cümhuriyyət qurulub, müstəqilliyin qorunması üçün addımlar atılıb, amma ərazi bütövlüyümüz bugünkü kimi bərpa olunmayıb. Bunun da əsas müəllifi Ali Baş Komandan, Prezident İlham Əliyevdir. İlham Əliyev birincisi, 21 ildə Azərbaycan iqtisadiyyatını gücləndirdi, enerji resurslarımızın dünyaya daşınmasını təmin etdi. Bundan əldə olunan gəlirlərlə ölkənin bütün sahələrində infrastruktur quruldu.**



İkincisi isə, ordu quruculuğunu yüksək səviyyədə həyata keçirdi. Qardaş Türkiyənin də köməyi ilə hərbi kadr hazırlığı təmin olundu. Bu da sonrakı dövrdə müharibədə əldə etdiyimiz uğurların əsas səbəbi oldu.

Üçüncüsü, ölkənin təhlükəsizliyi ilə bağlı çox ciddi diplomatik və siyasi manevrlər etməyi bacardı. Bu, birinci növbədə qonşu ölkələrlə, xüsusilə imperiya xəyalları olan, müəyyən dərəcədə başqa ölkələrin müstəqilliyinə hələ də şübhə ilə yanaşan, onlara kiçik dövlətlər kimi baxan böyük güclərlə düzgün münasibət sistemi qura və onlardan gələn təhdidlərin qarşısını ala bildi. Bu çox vacib idi. Ölkə içində ən başlıca olaraq siyasi cəhətdən elə addımlar atıldı ki, hansısa çaxnaşma, qarşıdurma elementləri, demək olar ki, xaricdən idarə olunan həddən çıxarıldı. Ölkədə daxili sabitlik ən əsas amilə çevrildi. Bunlar hamısı 21 il ərzində atılan addımlardır.

Digər tərəfdən bu illər ərzində həm də Azərbaycan beynəlxalq siyasətin əsas oyunçularından birinə çevrildi. Qoşulmama Hərəkatına sədrlikdən tutmuş Avropa Oyunları, "Avroviziya", müxtəlif beynəlxalq tədbirlər, sonuncu COP29-un ölkəmizdə keçirilməsi - bütün bunlar ölkənin imicinin nə qədər artdığını, siyasi çəkisinin necə yüksəldiyini göstərir. Bunların hamısı İlham Əliyevin strateji baxışlarından doğan nəticələrdir. Çünki strateji baxışı, vizyonu olmayan bir lider bu istiqamətləri gündəlik problemlərin içində görə bilməzdi. Bunu gördüyünə görə də atılan hər bir addım gələcək binanın təməlini qoydu.

21 il Azərbaycan tarixinin ən önəmli və ən dəyərli dövrü kimi qalacaq. Bu illər ərzində ölkənin elə bir sahədə hansısa şəkildə fürsəti qaçırmasının şahidi olmadıq. Tarix fürsətlərdən ibarətdir. Hansı ölkələr, liderlər imkanları qaçırırsa, sonra onu bərpa etmək mümkün olmur. Ya bir dövlət parçalanır, ya sıradan çıxır, ya da uğurlu nəticələr əldə etmək olmur. Məhz bu strateji baxış bucağından məsələləri təhlil etdiyinə, ölkədə milli, dini, sosial zəmində hər hansı qarşıdurmalar, inqilablar baş vermədiyinə görə, müxtəlif məxməri inqilablar dövrünü yaşamış ölkələrdən fərqli olaraq, Azərbaycan bu təlatümləri məhz İlham Əliyevin prosesləri doğru idarəetməsi nəticəsində keçmədi. Ölkə xüsusi təlatüm yaşamadı. Bu ağrılı-acılı prosesləri daha sağlam addımlarla keçə bildi. Ümid edirəm ki, Azərbaycan bundan sonra da İlham Əliyevin rəhbərliyi ilə dünyada sayılan, seçilən dövlətlər sırasında öz yerini qoruyacaq.

**Fazil MUSTAFA,**
***Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin, Böyük Quruluş Partiyasının sədri***

Azərbaycan.- 2024.- 15 oktyabr (№ 226).- S.7.